*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 259-263*

https://doi.org/10.62837/2026.2.259

**Fil.f.d. LALƏ ƏLƏKBƏROVA**
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu***
***lalalkbrova1990@gmail.com***

# FÜZULİNİN MƏTLƏÜL-ETİQAD ƏSƏRİNDƏ ŞƏRQ FƏLSƏFİ CƏRƏYANLARI

**Ключевые слова: знание, логика, научная мысль, исламская философия, пророчество**

**Key words: knowledge, logic, scientific thought, Islamic philosophy, prophecy**

**XÜLASƏ**

Bu məqalədə Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi Məhəmməd Füzulinin "Mətləul-etiqad fi mərifətil-məbdə vəl-məad" əsərinin fəlsəfi, dini və elmi məzmunu geniş şəkildə təhlil olunur. Əsər bilik, kainat, insan, Tanrı, peyğəmbərlik və axirət kimi əsas mövzular üzərində qurulmuşdur və klassik İslam fəlsəfəsi ilə kəlam elminin sintezini əks etdirir. Birinci hissədə bilik və idrak anlayışları, elmin mahiyyəti və mənəvi kamillikdə rolu araşdırılır. İkinci hissədə kainatın quruluşu, qədim yunan və Şərq filosoflarının baxışları müqayisəli şəkildə təqdim olunur. Üçüncü hissədə insanın ruhi və cismani tərəfləri, xeyir və şər anlayışı, Allah-insan münasibətləri fəlsəfi-teoloji baxımdan izah edilir. Dördüncü hissə isə peyğəmbərlik, axirət və imamət məsələlərinə həsr olunmuşdur.

**Açar sözlər: bilik, məntiq, elmi düşüncə, islami fəlsəfə, peyğəmbərlik**

**Giriş**. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Füzulinin "Mətləul-etiqad fi mərifətil-məbdə vəl-məad" əsəri fəlsəfi, dini və elmi düşüncənin sintezini əks etdirən mühüm mənbələrdən biridir. Bu əsərdə bilik, kainat, insan, Tanrı, peyğəmbərlik və axirət kimi fundamental məsələlər geniş şəkildə təhlil olunur. Müəllif klassik İslam fəlsəfəsi və kəlam elminin prinsiplərinə əsaslanaraq insanın idrak imkanlarını, varlığın mahiyyətini və mənəvi kamilliyə aparan yolları araşdırır.

Tam adı Mətləul-itiqad fi marifətil-məbdə vəl-məad olan əsər dörd əsas hissədən (rükn) ibarətdir. Birinci hissə biliyə həsr olunmuş, bilik və idrakın mahiyyəti adlanır. Müəllif bilik və məntiq anlayışlarının müxtəlif yöndən tərifini təqdim edir, əsərdə bilik sözü elm sözü ilə ifadə edilir. Lakin Füzulinin istifadə etdiyi elm məfhumu müasir dövrümüzdə işlətdiyimiz elm fikrindən fərqləndiyi üçün bilik və ya idrak sözü ilə ifadə edilir. "*Füzulinin idraka verdiyi birinci tərifdəki son qeyd ... idrak olunan obyektin zehindəki forması ilə xarici aləmdəki forması arasında uyğunluq məsələsidir.*" (2, 34) Dini və ya fundamental biliyin ötürülüb-ötürülməməsi və ya rasional olub-olmaması qısaca izah edilir və biliyin növləri və

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 259-263*

onun əldə edilməsi üsulları araşdırılır. "*Güman edilir ki, insanlar görkəmləri, əsas keyfiyyətlərinə görə eynidirlər, onların fərqi yalnız biliklərindədir, biliklər isə səviyyələrinə görə eyni deyil və onların içində ən çətini, nəcibi və faydalısı insanı mənəviyyat və kamilliklə zənginləşdirən bilikləridir.*" (1, 156) Bu fəsil 5 bölmədən ibarətdir. Fəridə xanım "Nizami və Füzuli" kitabının "Məhəmməd Füzuli. "Mətlə-ül-etiqad" – şair-mütəfəkkirin fəlsəfi irsi" adlı fəslin şərhinin verərkən Füzulinin toxunduğu mütəkəllimlər, qədərilər, salehilər, cəbərilər, cəhmilər, əşarilər, mötəzililər, işraqiyyə cərəyanının nümayəndələrinin fikirlərinin fərqliliklərini təhlil edir.

Əsərin ikinci bölməsi kainatın təbiətinə və keyfiyyətlərinə toxunur. Beş altbaşlıqdan ibarət olan bölmə əvvəlcə kainatın həqiqi mövcudluğunu müəyyən edir və Allahın varlığını isbat edir. Daha sonra qədim yunan mütəfəkkirlərinin, o cümlədən Platon və Aristotelin, eləcə də İbn Sina kimi Şərq alimlərinin kainatın fundamental mahiyyəti və ya prinsipi ilə bağlı baxışlarını sadalayır. Daha sonra, filosoflara (ayın üstündə və altında) və ilahiyyatçılara (aynlar və qəzalar) görə kainatı təşkil edən vahidlər və əbədi və əzəli varlıq anlayışı və ya faktiki mövcudluğu, və ya yoxluq anlayışı müzakirə olunur. Mötəzilər, əşairələr cəbrilərin fikirləri müqayisə edilir. Kainatın növlərinə həsr olunmuş üçüncü bölmədə əvvəlcə alim və müəllim qrupları, onları təqlid edən təqlidçilər, cəbr tərəfdarları, insanın azad iradəsinə və seçiminə inananlar, möminlər və mömin olmayanlar təsnif edilir. Daha sonra, bu bölmədə hiss olunan və görünməyən dünyalar, birini qəbul edib digərini qəbul etməyənlər, nəticədə yaranan inanc qrupları, maddi dünyanın cansız varlıqları və bitki və heyvan növləri haqqında bölmələr müzakirə olunur. Dördüncü bölmədə müəllif insanın iki əsas elementinə - ruha (ruha) və bədənə toxunur. Daha sonra yaxşılıq və pislik kimi mövzulara toxunur. Fəridə xanım bu bölmədə sofistlərlə İslam alimləri arasındakı məntiq fərqlərini, xüsusilə, yunan filosoflarının məntiqi əsası qəsdən pozmaları kimi incə nüansları təhlilə cəlb etmiş və bununla əsərin zənginliyinə diqqət çəkmişdir. "*Sofistlərin aləmin subyektiv dərk edilməsi ilə bağlı fikirlərinə etiraz edən Füzuli haqlı olaraq dünyanın başqalarının bunu edib-etməməsindən asılı olmayaraq, obyektiv varlıq olması qənaətinə gəlir. Lakin bu heç də o demək deyil ki, Füzuli maddi aləmin əzəli olduğunu qəbul edir. Füzulinin nəzərində maddi aləm birinci deyil, ikincidir.*" (1, 170-171) Sonuncu bölmədə mələklər, şeytanlar və cinlər də daxil olmaqla müxtəlif varlıq növlərindən də bəhs olnur.

Tanrı anlayışı və əlaqəli məsələlərə həsr olunmuş üçüncü bölmə fəlsəfi-teoloji mülahizələrə əsaslanaraq yazılmışdır. Bu bölmədə Füzuli insan və aləmin varlığını əsas götürür və bununla Tanrının varlığını sübut edir. Təbiət vasitəsilə ziddiyyət təşkil edən dörd ünsür yəni su, od, hava və torpaq yaranmışdır. İnsana gəlincə isə, o ruh və bədəndən ibarət varlıqdır. İnsanın ruhu mücərrəddir və ilk olaraq ruhu yaradılmışdır. "*Hər iki ünsür öz səbəbinə doğru meyl edir, digərini özünə tərəf*

*çəkməyə çalışır. Əgər ruh bədənə qalib gələr, onun heyvani istəklərinin önünə sədd çəkib paklamağı bacararsa, o zaman bədəni Məhəmmədin, İsanın və Musanın bədənləri kimi "illiyyun" (cənnətdə uca məqam) ən uca zirvəsinə aparar. Yox, əgər bədən ruh üzərində hökmranlıq etsə, ruhdan öz istəklərini əldə etmək üçün yararlansa, öz çirkinliklərinə onu da şərik etsə... onda Qarunun, Hamanın və Fironun ruhları kimi, o ruhu da olduğu uca məqamdan endirərək aşağılara doğru aparar.*" (2, 107-108) Bununla yanaşı bu rükndə Allahın sifətləri və vəhdəti məsələlərini, daha sonra, insan-Allah, aləm-Allah münasibətlərinə toxunulmuşdur. Üçüncü hissənin son bölmələri xeyir və şər mövzularına həsr olunub. Füzuli xeyrin tərifini verir və əşarilərin və mötəzillilərin baxış bucaqlarına toxunur. O, həmçinin İslam filosofların xeyir və şər haqqında fikirlərini təhlil edərək şərin "ən kamil" olan Allahdan qaynaqlana bilməyəcəyini bildirir. "*Müəllif bu Əli ibn Sinadan, Əbülhəsən əl-Əşəridən sitatlar gətirir, mötəzililərin islami baxımdan xeyir və şərlə bağlı görüşlərini işıqlandırır və əşarilər fikirləri –zəkaya görə nə xeyir, nə də şər vaardır, bunlar ancaq şəriətdədir deyə yazır.*"(1, 179)

Kitabın dördüncü bölməsi ilahi əsərlərdə üç əsas prinsipin (üsul-i sələsə) ikinci və üçüncüsünü təşkil edən peyğəmbərlik və axirət mövzularını əhatə edir. Birincisi, bəşəriyyətin peyğəmbərə ehtiyacı məsələsi filosofun baxış bucağı ilə təhlil olunur. Peyğəmbərlərin günah işləyib-işləməməsi müxtəlif filosofların fikirləri ilə fərqli bucaqdan araşdırılır. Daha sonra, insan varlığının orqanlardan, insan təbiətindən və ağıldan ibarət olduğu və bədənin rifahı və sağlamlığının təbiətdən deyil, ağıldan asılı olduğu vurğulanır. Əsərdə insan dünyası bədənlə, cəmiyyətlər orqanlarla, Şeytan insan-heyvan təbiəti ilə, peyğəmbərlər isə ağılla müqayisə edilir. Bu nəticə əldə olunur ki, dünyada nizam yalnız peyğəmbər vasitəsilə qurula bilər. Cəmiyyət üçün peyğəmbərliyin zəruriliyinin dəlilləri də Allahla bəşəriyyət arasındakı əlaqə, insanın mənəvi, psixoloji və sosioloji quruluşu baxımından araşdırılır və dəlillər sadalanır. Və Füzuli sufilərin peyğəmbərlərlə bağlı fikirlərini də qeyd edir: *"... sufilərin peyğəmbərlik anlayışı bir qədər fərqlidir: onların nəzərincə, Haqqın (Allahın) zahir və batini vardır. Batin dedikdə, Allahın hər kəsə sirr olan, heç kimin dərk edə bilmədiyi, mütləq qeyb olan zatı, həmçinin sabit eynlərdəki, yəni ikinci təəyyün məqamındakı (təəyyün - əyan olma) dərketmədən yaranan çoxluqlar nəzərdə tutulur. Zahir isə Allahın ad və sifətlərinin təzahür etdiyi materiya aləmidir... hər şeyi yoluna qoymaq, bu dünya və axirət dünyasının nizam-intizamını qorumaq üçün ədalətli bir vasitəyə ehtiyac var. Sufilərə görə, həmin vasitə peyğəmbərdir.*" (2, 106) Füzuli peyğəmbərlərlə bağlı fikrini Allahın adlarının təzahüründə əks etdiyini bildirərək, bu adların təzahüründən yaranan fərqliliklərin yaratdığı çəkişmələri yalnız peyğəmbərlərin həll edə biləcəyini bildirir.

Daha sonra peyğəmbərlərin günahsızlığı, Məhəmmədin peyğəmbərlik halqasının son halqası olması və digər peyğəmbərlərdən üstünlüyü məsələləri nəzərdən keçirilir. Daha sonra imamiyyət məsələlərinə və Hz. Əlinin imamlığı və

imamiyyətin onun nəslindən davam etməsi məsələlərini araşdırmışdır. "*Füzuli ilk olaraq İmamiyyət məfhumunun varlığının zəruriliyini vurğulamış və bu mövzuda sünni qaynaqlar tərəfindən istifadə edilən bu hədisi dəlil gətirmişdir. Kim zamanın imamını bilmədiyi təqdirdə ölərsə, cahiliyyətdə ölmüş kimidir.*" (3, 114) Proffessor Fəridə Əzizova İmamiyyət məsələsi ilə bağlı müxtəlif islami-fəlsəfi fikirləri təqdiq etmişdir: "*İsmaililərə gəlincə, onların əsas doktrinası ilahi həqiqətin Əli nəslindən olan qüsursuz bir imamın rəhbər seçilməsi yolu ilə bərqərar olmasıdır. İsnaəşərilər Əli nəslindən on iki imamı tanıyanlardır. Zeydilər beşinci şiə imamı Məhəmməd əl-Baqirin qardaşı Zeydin imamətinə inanırlar. Qulatlar isə radikal şiələrdir.*" (1, 199) İmamiyyət kimi həssas mövzuda həm şiə, həm sünni mənbələri ehtiyatla təqdim edən Füzuli irsini ən az Füzulli qədər incə və sıx tədqiq edən Fəridə xanımın bütün klassik ədəbiyyata eyni həssaslıqla yanaşdığını qələmə aldığı tədqiqat işlərindən müşahidə etmək olar. Onu da bildirmək istərdik ki, Fəridə xanım İslam alimlərinin qəbul etmədiyi tənasüx (reinkarnasiya) mövzusuna da toxunmuşdur. Dəyərli alimimiz bu mövzunu həm yunan fəlsəfəsi, həm də bəzi İslam təriqətləri fəlsəfi baxışı ilə araşdırmışdır. Bu təlimi qəbul edən və etməyən alimlərin və şairlərin düşüncələrini müqayisə edərək, öz münasibətini bildirmişdir.

**Nəticə.** Araşdırma göstərir ki, "Mətləul-etiqad" əsəri Füzulinin yalnız böyük şair deyil, həm də dərin düşüncəli filosof və ilahiyyatçı olduğunu sübut edir. Əsərdə bilik və idrakın mahiyyəti, kainatın quruluşu, insanın ruhi və cismani varlığı, xeyir-şər anlayışı, peyğəmbərlik və imamət məsələləri sistemli şəkildə izah olunur. Füzuli müxtəlif fəlsəfi və dini cərəyanların baxışlarını müqayisə edərək obyektiv mövqe nümayiş etdirir və insanın mənəvi kamilliyə çatmasının əsas yolunun ağıl, iman və əxlaq birliyindən keçdiyini vurğulayır. Nəticə etibarilə, "Mətləul-etiqad" Azərbaycan fəlsəfi fikrinin inkişafında mühüm rol oynayan, müasir dövrdə də aktuallığını qoruyan nadir əsərlərdən biri kimi qiymətləndirilə bilər.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Fəridə Əzizova. Nizami və Füzuli. Bakı, TEAS Press, 2025, 250 s.
2. Təbriz Qasımov. Mətləul-etiqad əsərinin şərhi. Bakı-İbrət, 2021, 164 s.
3. Mehmet Ali Yekta Saraç. Fuzulinin kelama dair "Matlaul-itikad" isimli eseri ve önemi. Elmi araşdırmalar, 2, İstanbul, 1996, s. 111-118

**Л.АЛАКБАРОВА**

## ВОСТОЧНЫЕ ФИЛОСОФСКИЕ ТЕЧЕНИЯ В «МАТЛА-УЛЬ-ЭТИКАД» ФИЗУЛИ

В данной статье подробно анализируется философское, религиозное и научное содержание произведения «Матлаул-этикад фи марифатил-мабда валь-маад» великого представителя азербайджанской литературы Мухаммада

Фузули. Произведение построено на таких основных темах, как знание, вселенная, человек, Бог, пророчество и загробная жизнь, и отражает синтез классической исламской философии и богословской науки. Первая часть рассматривает понятия знания и познания, сущность науки и её роль в духовном совершенстве. Вторая часть представляет структуру вселенной, взгляды древнегреческих и восточных философов в сравнительном ключе. Третья часть объясняет духовные и физические аспекты человека, понятие добра и зла, а также взаимоотношения Бога и человека с философско-богословской точки зрения. Четвёртая часть посвящена вопросам пророчества, загробной жизни и имамата.

**L.ALAKBAROVA**

## EASTERN PHILOSOPHICAL TRENDS IN FUZULI'S MATLA-UL-ETIQAD

This article provides a detailed analysis of the philosophical, religious, and scientific content of “Matlaal-itiqad fi marifatil-mabda val-maad” by Muhammad Fuzuli, a prominent figure in Azerbaijani literature. The work is built on key themes such as knowledge, the universe, man, Allah, prophecy, and the afterlife, and reflects a synthesis of classical Islamic philosophy and theological scholarship. The first part examines the concepts of knowledge and cognition, the essence of science, and its role in spiritual perfection. The second part presents the structure of the universe and the views of ancient Greek and Eastern philosophers in a comparative perspective. The third part explains the spiritual and physical aspects of man, the concept of good and evil, and the relationship between God and man from a philosophical and theological perspective. The fourth part is devoted to questions of prophecy, the afterlife, and the imamate.

**Rəyçi: fil.f.d., dosent Ruhəngiz Əliyeva**